ISSN 1028-8546

Volume XXII, Number 4
Section: Az
December, 2016

Azerbaijan Journal of Physics

Fizika

www.physics.gov.az

G.M. Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

Published from 1995
Ministry of Press and Information
of Azerbaijan Republic,
Registration number 402, 16.04.1997

ISSN 1028-8546
vol. XXII, Number 04, 2016
Series: Az

Azerbaijan Journal of Physics

FIZIKA

G.M.Abdullayev Institute of Physics
Azerbaijan National Academy of Sciences
Department of Physical, Mathematical and Technical Sciences

HONORARY EDITORS

Arif PASHAYEV

EDITORS-IN-CHIEF

Nazim MAMEDOV Chingiz QAJAR

SENIOR EDITOR

Talat MEHDIYEV

INTERNATIONAL REVIEW BOARD

Ivan Scherbakov, Russia
Kerim Allahverdiyev, Azerbaijan
Mehmet Öndr Yetiş, Turkey
Gennadii Jablonskii, Buelorussia
Rafael Imamov, Russia
Vladimir Man'ko, Russia
Eldar Salayev, Azerbaijan
Dieter Hochheimer, USA
Victor L'vov, Israel
Vyacheslav Tuzlukov, South Korea
Majid Ebrahim-Zadeh, Spain
Firudin Hashimzadeh, Azerbaijan
Anatoly Boreysho, Russia
Mikhail Khalin, Russia
Hasan Bidadi, Tebriz, Iran
Natiq Atakishiyev, Mexico
Maksud Aliyev, Azerbaijan
Arif Hashimov, Azerbaijan
Javad Abdinov, Azerbaijan
Bagadur Tagiyev, Azerbaijan
Tayar Djafarov, Azerbaijan
Talat Mehdiyev, Azerbaijan
Vali Huseynov, Azerbaijan
Ayaz Baramov, Azerbaijan
Tofiq Mammadov, Azerbaijan
Salima Mehdiyeva, Azerbaijan
Shakir Nagiyev, Azerbaijan
Rauf Guseynov, Azerbaijan
Almuk Abbasov, Azerbaijan
Yusif Asadov, Azerbaijan

TECHNICAL EDITORIAL BOARD

Senior secretary Elmira Akhundova, Nazli Guseynova, Sakina Aliyeva,
Nigar Akhundova, Elshana Aleskerova, Rena Nayimbayeva

PUBLISHING OFFICE

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics

Tel.: (99412) 539-51-63, 539-32-23
Fax: (99412) 447-04-56
E-mail: jophphysics@gmail.com
Internet: www.physics.gov.az

It is authorized for printing:

Published at "**SƏRQ-QƏRB**"
17 Ashug Alessger str., Baku
Typographer : Aziz Gulaliyev

Sent for printing on: __.__. 201_
Printing approved on: __.__. 201_
Physical binding:_____
Number of copies:_____200
Order:_____

METAL-OKSİD-YARIMKEÇİRİCİ YADDAŞ ELEMENTLİ YÜK ƏLAQƏLİ CİHAZ ƏSASINDAKI YADDAŞ QURĞULARINDA İNFORMASİYANIN OXUNMASI

E.Ə. KƏRİMOV, S.N. MUSAYEVA*

Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu,
S.S. Axundov küç. 1, AZ 1115
*Azərbaycan Texniki Universiteti, H. Cavid pros. 25, AZ 1073**

Məqalədə enerjidən asılı olmayan metal-oksid-yarımkeçirici (MOY) yaddaş elementli yük əlaqəli cihaz (YƏC) əsasında yaddaş qurğusunda informasiyanın sayılması üsuluna baxılmışdır. Çıxış siqnalının qiyməti, teztəsir, istifadə olunan güc qiymətləndirilmişdir. İnformasiyanın sayılması zamanı yaddaş qurğusunun (YQ) işləmə rejiminin optimallaşdırılması kriteriyası alınmışdır.

Açar sözlər: doldurucu, registr, yük əlaqəli cihaz, çıxış siqnalı, gücləndirici, məntiqi sıfır, məntiqi vahid.
UOT: 621.383.5
PACS: 73.40.Ns, 73.40.Sx, 72.10.-d

MOY – yaddaş özəklərinin YƏC-lə uzlaşması enerjidən asılı olmayan yüksək sıxlıqlı informasiya yazılışlı YQ-ların yaradılmasına geniş imkanlar yaradır [1,2]. Saxlama elementi MOY – kondensator olan qurğuların yaradılması zamanı həlli vacib olan məsələlərdən əsası strukturda saxlanılan yükün miqdarının qeyd olunmasıdır. Bu zaman yazılan informasiya dağılmamalı, istifadə olunan güc minimal olmalı, informasiyanın oxunması tempi mümkün qədər yüksək olmalıdır. Məqalə, müxtəlif tip doldurucuların yaradılması zamanı tətbiq oluna biləcək MOY-YƏC əsasında yaddaş qurğusunda informasiyanın oxunması üsullarının analizinə həsr olunmuşdur.

Eksperimental olaraq sayma rejimi hər bir elektrodunun yanında MOY – kondensator yerləşən *p*-tip silisium əsasında 4 taktlı YƏC – registr əsasında doldurucuda öyrənilmişdir. Yükün registrə daxil edilməsi üçün diffuziya oblastı istifadə edilmiş, çıxış siqnalı xətti gücləndirici vasitəsi ilə qeyd edilmişdir (şəkil 1).

MOY – struktura yazılan istənilən işarəli yük silisium nitriddə olan tələlərdə istənilən müddət saxlanıla bilər. Hesab edəcəyik ki, kifayət qədər amplituda malik mənfi gərginlik verildikdə tələlər tərəfindən tutulan müsbət yüklər məntiqi sıfır, müsbət gərginlik verildikdə isə mənfi yükün (qeyri-əsas yük daşıyıcıları) tutulması məntiqi vahid halına uyğun gəlir. Yazılan yük MOY – strukturun sərhəd gərginliyini dəyişir, ona görə də struktura yoxsullaşdırıcı gərginlik verildikdə yaranan potensial çuxurun tutumu məntiqi sıfır və məntiqi vahid hallarında müxtəlif olacaq. MOY – strukturda saxlanıla bilən qeyri-əsas daşıyıcıların maksimal yükü:

$$Q_{\max} = c_g S\left(U - U_{ser}\right) \qquad (1)$$

burada, U – struktura tətbiq edilən gərginlik, $U_{sər}$ – MDY (metal-dielektrik-yarımkeçirici) – strukturun sərhəd gərginliyi, c_g– dielektrikin xüsusi tutumu, S– elementin sahəsidir. Məntiqi vahid və məntiqi sıfır hallarında saxlanılan yüklər arasındakı fərq aşağıdakı qiyməti ala bilir:

$$\Delta Q_{\max} = c_g S\left(U_{ser}^{1} - U_{ser}^{0}\right) \qquad (2)$$

MOY–YƏC-də informasiyanın sayılması üçün yaddaş elementinin saxlama qabiliyyətinin qiymətləndirilməsinə əsaslanan bir neçə üsul göstərilir. Aparılan işdə doldurucunu YƏC-in köməyi ilə yüklə tam doldurmaq, sonra isə yoxsullaşdırıcı gərginlik verməklə doldurucunu MOY – elementlərinin altına gətirmək təklif olunur. Belə ki, yoxsullaşdırıcı gərginlik elə seçilə bilər ki, məntiqi vahid halında yük elektrod altında qala bilmir və rekombinasiya olunur. Bir müddət sonra uyğun ardıcıllıqla takt impulsları tətbiq edərək informasiya yükünü YƏC-dən çıxarmaq və gücləndiricinin köməyi ilə saymaq olar. Bu üsulun əsas çatışmazlıqlarından biri, çox kiçik teztəsir və yük rekombinasiya etməyibsə, onun tutulmasının mümkünlüyüdür. Digər üsullar strukturda injektor və idarəedici elektrod kimi əlavə elementlərin olmasını tələb edir ki, bu da sxem tərəfindən tutulan sahənin böyüməsinə gətirir [3,4,5].

Tərəfimizdən bütün hallarda soruşulan yükü kənarlaşdıran üsul təklif və tətbiq olunmuşdur ki, bu üsul əlavə elementlər tələb etmir və YƏC-in registrinin teztəsirinə bərabər teztəsirə malikdir. Strukturunun en kəsiyi şəkil 2-də göstərilmiş doldurucunun soruşulma prosesinə baxaq.



Şəkil 1. MOY – YƏC əsasında YQ – doldurucusunun sxemi.

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics
E-mail: jophphysics@gmail.com



Şəkil 2. Strukturun kəsiyi və informasiyanın sayılması prosesində səthi potensialın profilinin zaman diaqramları.



Şəkil 3. Məntiqi sıfır və məntiqi vahid hallarında çıxış gərginliyinin sayma gərginliyindən asılılığı:
Δ▲ – eksperiment; ●○ – hesablama.

Burada Ψ- MOY– kondensatorlar Φ_1 –daşınma elektrodunun yanında yerləşmişdir. Soruşan yük YƏC – registrinə takt impulsları verildikdə Φ_1 – elektrodunun altına gətirilir (şəkil 2 b), sonradan daşınma elektrodunda gərginlik U_d - dayaq qiymətinə qədər azalır və eyni zamanda Ψ – elektroduna yoxsullaşdırıcı impuls verilir (şəkil 2 c). Φ_1 - və Ψ - elektrodları arasında soruşan yükün paylanması baş verdikdən sonra Φ_2 – elektroduna U_r – amplitudalı takt impulsu tətbiq edilir (şəkil 2 d). Müstəvi zonaların $U_{m.z.}$– gərginliyinin qiymətindən asılı olan yükün bir hissəsi Φ_2 – elektrodu altında potensial çuxura axacaq, digər hissəsi isə Ψ– elektrodu altında qalacaq və çıxışa takt tezliyinin bir periodu qədər gecikərək gələcək (şəkil 2 e).

Çıxışa birinci gələn yükü Q_1, bir period gecikən yükü isə Q_2 ilə işarə edək. Q_0 – soruşan yükün, U_d – dayaq gərginliyin, Ψ – elektroduna verilən U_s – sayma gərginliyin, Φ və Ψ elektrodların sahələrinin nisbətinin, $U_{m.z.}$– müstəvi zonalar gərginliyinin qiymətindən asılı olaraq yük müxtəlif cür paylana bilir. Şəkil 3-də Q_0 və U_d -ın fiksə olunmuş qiymətlərində çıxış siqnalının sayma gərginliyindən hesablanmış və eksperimental alınmış asılılıqları verilmişdir. əyrilər üç xarakterik sahəyə malikdirlər. I sahədə Ψ altındakı səthi potensial Φ_1 altındakı qeyri- bərabər səthi potensialdan azdır və bütün yük Φ_2 altına axır ($Q_1 = Q_0$, $Q_2 = Q_1$).

Φ_Ψ – səthi potensialın artması ilə Q_1 və Q_2 – yüklərinin paylanması (II sahə) baş verir. U_s və U_d – xarici gərginliklərin hər bir qiyməti üçün bu sahədə yüklərin qiyməti aşağıdakı ifadədən tapıla bilir:

$$Q_1 = Q_0 - Q_2 \tag{3}$$

$$Q_2 = c_\Psi S_\Psi \left\{ \left\{ U_s - U_{m.z.} + \frac{eN_a\varepsilon_S}{c_\Psi^2} - \frac{1}{c_\Psi}\left[2eN_a\varepsilon_S\left(U_s - U_{m.z.}\right) + \left(\frac{eN_a\varepsilon_S}{c_\Psi}\right)^2 \right] \right\}^{\frac{1}{2}} - \right.$$

$$\left. - U_d + \frac{eN_a\varepsilon_s}{c_\Phi^2} - \frac{1}{c_\Phi}\left[2eN_a\varepsilon_s U_0 + \left(\frac{eN_a\varepsilon_s}{c_\Phi}\right)^2 \right]^{\frac{1}{2}} \right\} \tag{4}$$

burada, N_a – aşqarın konsentrasiyası, ε_s – isə yarımkeçiricinin dielektrik nüfuzluğudur.

$S_\psi c_\psi(\varphi_\psi - \varphi_\Phi) = Q_0$ olduğu zaman bütün yük bir takt periodu qədər gecikəcək, yəni Q_1=0, Q_2=Q_0 (III sahə). $\Delta U_{m.z.}$ – kəmiyyətinin qiymətləndirilməsi Q_1 və Q_2-nin hər hansi bir dayaq səviyyəsi və ya öz aralarında qiymətlərinin müqayisəsi ilə həyata keçirilə bilər. Ən əlverişli sayma üsulu məntiqi sıfır və məntiqi vahid hallarında siqnalın maksimal fərqlənməsini və konstruktiv parametrlərin və qidalandırıcı gərginliklərin nominal qiymətlərdən ən çox kənaraçıxmasını təmin edən sayma üsuludur. Hesab edəcəyik ki, işçi nöqtə, yəni U_s, U_d və Q_0 elə seçilib ki, $\Delta U_{m.z.}$ dəyişməsi bu nöqtəni xarakteristikaların xətti sahəsindən kənara çıxarmır. Q_1 və Q_2-nin müqayisəsindən çıxış siqnalının səpələnməsi aşağıdakı şəkil alacaq:

$$\Delta Q_{12} = \Delta Q_{çıx} = \Delta\left(Q_1 - Q_2\right) = \Delta Q_0 + 2\left[\left(\varphi_\psi + \varphi_{m.z.} - \varphi_\Phi\right)\Delta S_\psi c_\psi + \right.$$

$$\left. + c_\psi S_\psi\left(\Delta\varphi_\psi + \Delta\varphi_{m.z.} + \Delta\varphi_\Phi\right)\right] \tag{5}$$

və məntiqi sıfır və məntiqi vahid halında siqnallar fərqinin maksimumu:

$$Q_{çıx}^0 - Q_{çıx}^1 = S_\psi c_\psi \Delta U_{m.z.} \tag{6}$$

olacaq. Q_1 - in dayaq siqnalı ilə müqayisəsi zamanı çıxış siqnalının səpələnməsi:

$$\Delta Q_1 = \Delta Q_0 + \left(\Delta\varphi_\Psi + \Delta\varphi_{m.z.} + \Delta\varphi_\Phi\right)S_\psi c_\psi + \left(\varphi_\Psi + \varphi_{m.z} - \varphi_\Phi\right)\Delta S_\psi c_\psi \tag{7}$$

Q_2 - nin dayaq siqnalı ilə müqayisəsi zamanı isə:

$$\Delta Q_2 = \Delta Q_1 - \Delta Q_0 \tag{8}$$

Çıxış siqnalının maksimal qiyməti:

$$Q_{çıx} - Q_d = \frac{S_\psi c_\psi \Delta U_{m.z.}}{2} \tag{9}$$

Beləliklə, çıxış siqnalının maksimal qiyməti Q_1 və Q_2- nin öz aralarında çıxış siqnalının ən kiçik səpələnməsi isə Q_2 - nin dayaq siqnalı ilə müqayisəsi zamanı alınır. Daha etibarlı sayma üçün aşağıdakı şərt ödənilməlidir:

$$Q_{çıx}^0 - Q_{çıx}^1 - \Delta Q_{çıx} > Q_{ser.} \tag{10}$$

burada, $Q_{sər.}$ – gücləndiricinin sərhəd həssaslığıdır. Yazılış zamanı müstəvi zonaların $U_{m.z.}$ – gərginliyinin qiyməti-

nin dəyişməsi elə olmalıdır ki, Q_2 və Q_1 – in müqayisəsi zamanı aşağıdakı şərt ödənilsin:

$$\Delta U_{m.z.} > \frac{Q_{ser.} + \Delta Q_{12} - Q_0}{2c_\psi S_\psi} + \left(\varphi_\psi - \varphi_\Phi\right) \quad (11)$$

əgər Q_2 dayaq səviyyəsi ilə ($Q_0/2$) müqayisə olunursa:

$$\Delta U_{m.z.} > \frac{2\left(Q_{ser.} + \Delta Q_2\right)}{2c_\psi S_\psi} + \left(\varphi_\psi - \varphi_\Phi\right) \quad (12)$$

(11) və (12)- nin müqayisəsindən və (5) və (8)-dən istifadə etsək, aşağıdakı mülahizələr alınar: əgər $Q_{sər.} > \Delta Q_0$ olarsa, informasiyanın sayılması Q_1 və Q_2-nin müqayisəsindən; əgər $Q_{sər.} < \Delta Q_0$ olarsa, Q_2 -nin dayaq siqnalı ilə müqayisəsindən daha əlverişlidir. MOY – kondensatorun özəyinin ölçüsü 25 mkm^2 və $\Delta U_{m.z.}$=4V olarsa, gücləndiricinin sərhəd həssaslığı 0,12-0,13pKl olmalıdır. U_0 – gərginliyi elə seçilir ki, soruşan Q_0 – yükünü saxlamaq mümkün olsun, yəni $c_\Phi U_0 \geq Q_0$ şərti ödənilsin.

Sayma prosesində teztəsir maksimal qiyməti $\varepsilon Q_0 n = Q_{sər.}$ ifadəsindən təyin olunan ε – daşınmanın qeyri-effektivliyi ilə məhduddur. Burada n – yükün daşınması taktlarının sayıdır. Sayma prosesimdə soruşan YƏC-in potensial çuxurunun 10-15%-ni doldurduğundan, kristalda səpilən güc o qədər də böyük deyildir. ε_e – kəmiyyəti $P = Nf_T Q_0 U_T$ formulundan qiymətləndirilə bilər: burada, N – taktların sayı, f_T –takt tezliyidir. Baxdığımız halda 1MHs tezlik üçün bir bit informasiyanın sayılması zamanı səpilən güc 5 mkVt təşkil edir.

[1] *A.B. Вениаминов, В.Н.Михайлов.* Оптические системы записи, хранения и отображения информации. 2009, №2, 10-20.

[2] *М.Г. Весноватов, Г.А. Карацюба, В.В. Павлов*. Перспективные однокристальные ЭВМ. 1997, № 2, 7-9.

[3] *Т.Р. Блейксли*. Проектирование цифровых устройств с малыми и большими интегральными схемами. 1991, №3, 332-336.

[4] *Ю.Р. Носов.* Приборы зарядовой связи. М., Знание, 1999, с. 120-132.

[5] *С.И. Седлавский*. Электрорадиоэлементы и устройства функциональной электроники. 2015, с. 4-6.

E.A. Kerimov, S.N. Musaeva

İNFORMATİON READİNG İN THE STORAGE UNİT BASED ON METAL-OXIDE-SEMICONDUCTOR ON CCD

The article describes the method of information reading in non-volatile memory devices based on metal-oxide-semiconductor (MOS) on the CCD. Signal output, speed and power consumption are estimated. At reading the information, a criterion of optimization of the operating mode of the memory device is obtained.

Э.А. Керимов, С.Н. Мусаева

СЧИТЫВАНИЕ ИНФОРМАЦИИ В ЗАПОМИНАЮЩИХ УСТРОЙСТВАХ НА ОСНОВЕ МЕТАЛЛ-ОКИСЬ-ПОЛУПРОВОДНИК НА ПРИБОРАХ С ЗАРЯДОВОЙ СВЯЗЬЮ

В статье рассмотрен метод считывания информации в энергонезависимых запоминающих устройствах на основе металл-окись-полупроводник (МОП) на приборах с зарядовой связью (ПЗС). Оценены выходной сигнал, быстродействие, потребляемая мощность. При считывании информации получен критерий оптимизации режима работы запоминающего устройства.

Qəbul olunma tarixi: 20.09.2016

İNDİUM MONOTELLURİDİ VƏ $(InTe)_{1-X}(TlGaTe_2)_X$ BƏRK MƏHLUL KRİSTALLARINDA ELEKTRON VƏ FONON SƏPİLMƏSİNİN TƏBİƏTİ

M.Ş. HƏSƏNOVA, Ç.İ. ƏBİLOV
Azərbaycan Texniki Universiteti
AZ 1073, Bakı ş., H. Cavid pr.,25.
e-mail: mhsh28@mail.ru; cabilov@yahoo.com

InTe birləşməsində və $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarında istilik keçiriciliyinin və yükdaşıyıcılarının Holl yürüklüyünün temperatur asılılıqları tədqiq edilmişdir. Göstərilmişdir ki, həm birləşmədə, həm də bərk məhlul kristallarında istiliyin daşınması birfononlu mexanizm üzrə baş verir. Yüksək temperaturlarda istilik keçiriciliyində mürəkkəb mexanizmlər dominantlıq edir. Yükdaşıyıcıların səpilməsi isə aşağı temperaturlarda ionlaşan aşqar atomlarından, yüksək temperaturlarda isə kristallik qəfəsin istilik rəqslərindən baş verdiyi aşkar edilmişdir.

Açar sözlər: birfononlu mexanizm, ionlaşan aşqar atomları, kristallik qəfəsin istilik müqaviməti, istilik rəqslərindən səpilmə.
PACS: 09.09.29

InTe-$TlGaTe_2$ sistemində faza tarazlığının təbiəti araşdırılarkən indium monotelluridi əsasında bərk məhlul sahəsinin mövcud olduğu aşkar edilmiş, onların bəzi fiziki-kimyəvi və elektrofiziki xassələri [1, 2]-də tədqiq olunmuşdur. Lakin bu materialın istilik xassələri haqqında ədəbiyyat məlumatları olmadığından bu istiqamətdə tədqiqatların yerinə yetirilməsi elmi və tətbiqi əhəmiyyət kəsb edə bilər. Bu məqsədlə, $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarının iki tərkibində ümumi istilikkeçiriciliyinin və Holl yürüklüyünün temperatur asılılıqları ölçülmüşdür. Ölçmələr 300-850K temperatur intervalında [3]-də verilən metodikaya əsasən aparılmışdır. Təmiz InTe-un istilikkeçiriciliyinin temperatur asılılığı ~673÷1473 K temperatur intervalında [4] işinin müəllifləri tərəfindən yerinə yetirilmişdir ki, burada da ~923 K temperaturundan yüksəkdə birləşmə ərimiş halda olmuşdur. Əriməyə yaxın temperaturlarda isə, istilikkeçirmə əmsalı temperaturdan asılı olaraq, çox zəif düzxətli azalmaya meyl göstərir. Bizim ölçmələrdə də istilikkeçirmə əmsalının bu temperatur intervalındakı dəyişməsi, demək olar ki, eyni təbiətlidir (şəkil 1).



Şəkil 1. İndium monotelluridi və onun əsasında aşkar edilən $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarının ümumi istilik keçiriciliyinin temperatur asılılıqları.

Lakin 300-673 K intervalında $æ_{üm}$-nın temperaturla dəyişməsi bir qədər güclüdür. Şəkil 1-dəki digər iki əyri $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlullarının iki tərkibinə aiddir. Göründüyü kimi, hər iki bərk məhlul kristallarında 300-600 K temperatur intervalında $æ_{üm}$-nın dəyişməsi mənfi üstlü qanun üzrə dəyişir. Lakin ~623 K-dən yüksəkdə hər iki bərk məhlul tərkiblərində istilikkeçiriciliyinin artması müşahidə olunur. Ədəbiyyat məlumatlarından məlumdur ki, belə hal nümunələrdə bipolyar istilikkeçiriciliyinin yaranması ilə əlaqədar ola bilir [5]. Tədqiq edilən kristallarda istiliyin daşınma mexanizmini aydınlaşdırmaq məqsədilə ümumi istilikkeçiriciliyinin tərkib hissələri yəni, elektronlara və fononlara görə olan istilikkeçiriciliyi hesablanmış və onlar bir qədər geniş analiz edilmişdir. Burada əsasən Videman-Frans qanunundan və bipolyar istilikkeçiriciliyi üçün olan $æ_{b\text{-}p}= 2L_0\sigma T\left(\frac{\Delta E}{4kT}+1\right)^2$ düsturundan istifadə edilmişdir. 2-ci şəkildə InTe birləşməsinin və $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarının elektronlara görə baş verən istilikkeçiriciliyinin temperatur asılılıqları verilmişdir.



Şəkil 2. InTe və $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarının elektronlara görə istilikkeçiriciliyinin temperatur asılılıqları.

Göründüyü kimi, temperaturun yüksəlməsi elektronlara görə olan istilikkeçiriciliyinin artmasına səbəb olur. Hər üç nümunədə $æ_{el.}$ əmsalı temperaturdan asılı olaraq kəskin artıma malikdir. Görünür, yüksək temperaturlarda istilikkeçiriciliyində elektronların rolu nəzərə çarpacaq dərəcədədir. Lakin, fikrimizcə, kristallarda istiliyin daşınmasında əsas rol fononlara məxsusdur. Bu səbəbdən, tədqiq edilən nümunələrin fonon istilikkeçiriciliyi hesablan-

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics
E-mail: jophphysics@gmail.com

mış, onun tərs qiymətinə əsasən fonon istilik müqaviməti tapılmış və temperatur asılılığı qurulmuşdur (şəkil 3).

Göründüyü kimi, hər üç nümunədə temperaturun yüksəlməsi ilə kristallik qəfəsin istilik müqaviməti də artır. Lakin belə artma aşqarsız InTe-da istilik müqavimətinin nəzəri hesablanmış qiymətinə (W_0) uyğun olaraq düzxətlidirsə, tərkibində $TlGaTe_2$ olan nümunələrdə belə uyğunluq yalnız aşağı temperaturlarda (~500 K-ə qədər) ödənilir.



Şəkil 3. InTe və $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarının fonon istilik müqavimətinin temperatur asılılıqları.

Temperaturun sonrakı yüksəlməsi əlavə fonon istilik müqavimətinin (ΔW_f) yaranması ilə müşahidə olunur. Lakin bərk məhlulun birinci tərkibində (0,5 mol% $TlGaTe_2$) əlavə fonon istilik müqavimətinıin qiyməti kiçikdir. Tərkibində ikinci komponentin miqdarı çox olan nümunədə isə fonon istilik müqavimətinin qiyməti daha böyükdür. Hesablamalardan məlum olmuşdur ki, $(InTe)_{0,995}(TlGaTe_2)_{0,005}$ tərkibli nümunədə istiliyin daşınması $T^{0,01}$ qanunu, $(InTe)_{0,99}(TlGaTe_2)_{0,01}$ tərkibli nümunələrdə isə 500 K-ə qədər $T^{0,05}$ daha yüksək temperaturlarda isə $T^{0,16}$ qanunu üzrə baş verir. Yəni, burada birfononlu istilik daşınması hadisələri üstünlük təşkil edir. Üst əmsallarının qiymətlərinə görə isə belə bir nəticəyə gəlmək olar ki, göstərilən nümunələrdə fonon səpilməsində dislokasiyalardan olan səpilmə də özünə yer tapır [6]. Tədqiq edilən məhlulların anizotropluğa malik InTe birləşməsi əsasında alınmasını nəzərə alsaq, kristallik quruluşda dislokasiya tipli defektlərin mövcudluğu şübhə doğurmamalıdır. Bərk məhlul nümunələrində əmələ gələn əlavə fonon müqavimətinin qiymətini kəmiyyətcə $\Delta W = W_f - W_{birfonon}$ düsturu ilə qiymətləndirmək olar. Yuxarıda qeyd edildiyi kimi, yüksək temperaturlarda bərk məhlul kristallarında istilik keçiriciliyinin böyüməsi müşahidə olunur. Adətən, belə hadisəni bipolyar istilik keçiriciliyi ilə əlaqələndirirlər [5,6]. Lakin $\varkappa_{b-p} = 2L_0\sigma T\left(\frac{\Delta E}{4kT}+1\right)^2$ ifadəsindən istifadə edərək yerinə yetirilən hesablamalar müsbət (qənaətbəxş) nəticələr vermədiyindən, tədqiq edilən bərk məhlul tərkiblərində yüksək temperaturlarda istilik keçiriciliyində digər mexanizmlərin mövcudluğu qənaətinə gəlmək olar. Belə ki, [5,6]-də göstərilir ki, GaTe, GaSe, InSe və s. kimi yarımkeçiricilərdə yüksək temperaturlarda (T>480 K) əlavə istilikkeçiriciliyi yaranır ki, o da temperaturla eksponensial olaraq artır. Bu eksitonlara görə olan istilikkeçiriciliyidir. Digər tərəfdən göstərilir ki, $A^{III}B^{VI}$ tipli birləşmələrdə yüksək temperaturlarda bu mexanizmlər zəifləyir [5] və əvəzində elektron keçidlərinin aktivləşən enerjilərinin güclənməsi hesabına istilikkeçiriciliyi yüksəlməsi prosesi baş verir. Fikrimizcə, tədqiq edilən $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlullarında GaTe tərkibli çox kiçik ölçülü assosiatlar əmələ gələ bilər və onlar da ümumi istilikkeçiriciliyinə göstərilən mexanizmlərlə təsir edə bilərlər. Nəhayət, yüksək temperaturlarda $A^{III}B^{VI}$ tipli birləşmələrdə istilikkeçiriciliyinin yüksəlməsinin bir səbəbi də eksitonlara görə yaranan istilikkeçiriciliyidir ki, bu mexanizm $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarında da yarana bilər. Təəssüf ki, sonuncu bu iki mexanizmin ümumi istilikkeçiriciliyindəki payının kəmiyyətcə hesablanması mümkün olmamışdır. Lakin, 2-ci şəkildən göründüyü kimi, elektronlara görə olan istilikkeçiriciliyinin artması, xüsusilə də ~600 K temperaturundan yüksəkdə belə artmanın kəskin eksponensial olması, göstərilən sonuncu üç mexanizmdən tədqiq edilən kristallarda birincisinin, yəni yüksək temperaturlarda elektron keçidlərinin aktivləşən enerjiləri mexanizminin hesabına ümumi istilikkeçiriciliyinin yüksəlməyə meyl göstərməsi mövcudluğunu real qəbul etmək olar. Bu mexanizmin modelinə görə enerjinin rezonans ötürülməsi hesabına yüksək temperaturlarda istilikkeçiriciliyi arta bilər [7,8]. Modelin özünü isə aydınlaşdırmaq üçün, fərz etmək olar ki, tədqiq edilən nümunələrdə iki lokallaşmış donor vəziyyəti yaranıb. Onlardan biri elektronla zəbt olunmuş, digəri isə boşdur. Yükdaşıyıcıların qarşılıqlı təsiri nəticəsində donor səviyyəsində və keçiricilik zonasında rezonans keçidləri baş verir. Bu zaman elektron donor səviyyəsindən keçiricilik zonasına həyacanlanır və eyni zamanda keçiricilik zonasında elektron sərbəst donor tərəfindən tutulur, donor vəziyyətinin ionlaşma enerjisi ($E_{don.}$) ikinci donordan birinci donora ötürülür. Əgər donorun iki vəziyyəti arasında ΔT temperatur fərqi mövcuddursa, o zaman ionlaşma enerjisinin daşınması baş verir. Belə enerjinin istilikkeçiriciliyindəki payını hesablamaq çətindir, lakin [5]-də onun kəmiyyətcə hesablanma ifadəsi verilmişdir.



Şəkil 4. InTe birləşməsi və $(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarında yükdaşıyıcılarının Holl yürüklüyünün temperatur asılılıqları.

$(InTe)_{1-x}(TlGaTe_2)_x$ bərk məhlul kristallarında və InTe birləşməsində yükdaşıyıcılarının səpilmə mexanizmi Holl yürüklüyünün temperatur asılılığından (şəkil 4) aydınlaşdırılmışdır.

Şəkildən göründüyü kimi, aşağı temperaturlarda (~400K-ə qədər) yükdaşıyıcılarının yürüklüyü $T^{(1,4\div2,0)}$ qanunu üzrə dəyişir ki, bu da səpilmənin ionlaşmış aşqar atomlarından baş verdiyini göstərir. Lakin ~450K temperaturundan yüksəkdə yürüklük $T^{-3,3}$ qanununa tabe olur. Yəni bu zaman səpilmə kristallik qəfəsin istilik rəqslərinin nəticəsi olaraq meydana gəlir. $lgU_N \sim flg(T)$ qrafiklərinin yayılmış maksimuma malik olması yükdaşıyıcılarının səpilməsində daha bir mexanizmin mövcudluğunu, yəni burada polyarlaşmış optik rəqslərdən səpilmənin olduğunu göstərir.

[1] *M.Ş. Həsənova, Ç.İ. Əbilov.* InTe-$TlGaTe_2$ sistemi ərintilərinin fiziki-kimyəvi və bəzi Elektrofiziki xassələri. «Elmin fundamental və tətbiqi problemləri», VI Beynəlxalq simpoziumunun materialları. Moskva, 2011, MCHT tipoqrafiyası, cild 1, s. 46-51.

[2] *Ç.İ. Əbilov, A.N. Məmmədov, M.Ş. Həsənova, S.Ə. Quliyeva*. InTe-$TlGaTe_2$ sistemində fazaəməlgəlməsi. «Kimya elminin müasir problemləri və formasiyası». Ümumrosiya konfransının materialları. Rusiya, Çeboksari, 2014, ÇDU-nun tipoqrafiyası, s.12.

[3] *М.А. Кретова, Е.С. Авилов, В.С. Земсков*. Введение в методику экспериментов. Результаты и их обсуждения. М., 2004, Наука, 196 с.

[4] *В.И. Федоров, В.И. Мачуев*. ФТТ, 1968, том 8, №12, с.2263-2265.

[5] *В.М. Могилевский, А.Ф. Чудновский*. Теплопроводность полупроводников М., 1972, Наука, 536 с.

[6] *В.С. Оскотски, И.А. Смирнов*. Дефекты в кристалах и теплопроводность М.,1972, Наука,160 с.

[7] *S. Koshino*. J. Phys. Soc. Japan. 1960, vol. 15, p.1538.

[8] *S. Koshino, T. Ando*. J. Phys. Soc. Japan. 1961, vol. 16, p. 1151.

M.Sh. Hasanova, Ch.I. Abilov

THE NATURE OF THE ELECTRON AND PHONON SCATTERING IN CRYSTALS OF INDIUM MONOTELLURIDE AND SOLID SOLUTIONS $(InTe)_{1-x}(TlGaTe_2)_x$

The temperature dependences of the total thermal conductivity and Hall mobility of carriers in InTe crystals and $(InTe)_{1-x}(TlGaTe2)_x$ solid solutions are investigated. It is shown that both in crystals and compounds of solid solutions the heat transfer occurs by single background mechanism. Complex mechanisms dominate in the thermal conductivity at high temperatures. It is observed that the scattering of carriers is carried out by ionized impurity atoms at low temperatures and by thermal vibrations of the crystal lattice at high temperatures

М.Ш. Гасанова, Ч.И. Абилов

ПРИРОДА ЭЛЕКТРОННОГО И ФОНОННОГО РАССЕЯНИЯ В КРИСТАЛЛАХ МОНОТЕЛЛУРИДА ИНДИЯ И ТВЕРДЫХ РАСТВОРОВ $(InTe)_{1-x}(TlGaTe_2)_x$

В кристаллах соединения InTe и твердых растворов $(InTe)_{1-x}(TlGaTe_2)_x$ исследованы температурные зависимости общей теплопроводности и Холловской подвижности носителей тока. Показано, что как в соединении, так и в кристаллах твердых растворов перенос тепла осуществляется однофонным механизмом. При высоких температурах в теплопроводности доминируют сложные механизмы. Выявлено, что рассеяние токоносителей при низких температурах осуществляется от ионизированных примесных атомов, а при высоких температурах от тепловых колебаний кристаллической решетки.

Qəbul olunma tarixi: 23.09.2016

POLİETİLEN MATERİALINDA STRUKTURUN VƏ DEFORMASİYA PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİ

A.M. HƏŞİMOV, L.Ç. SÜLEYMANOVA, K.B. QURBANOV, G.Ə. AĞAYEVA
Azərbaycan MEA-nın akademik H.M. Abdullayev adına Fizika İnstitutu,
Azərbaycan, Bakı, AZ 1143, H.Cavid prospekti, 131

Məqalədə polietilen materialının bir ox istiqamətində deformasiya prosesləri tədqiq edilmişdir. Müxtəlif texnoloji rejimlərdə hazırlanmış, ilkin sferolit struktura malik polietilen materialının müxtəlif temperatur-zaman çərçivəsində deformasiya prosesinin materialın qalınlığı və ərintinin soyudulma sürətindən asılılığı tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, materialın qalınlığı artdıqca və ərintinin soyudulma sürəti azaldıqca, materialın deformasiya prosesi zəifləyir.

Açar sözləri: polimer, sferolit, fibril, temperatur, deformasiya, amorf, kristal, struktur.
UOT: 539.26.

Spesifik kimyəvi və fiziki struktura malik olan polimer materiallar müasir sənayenin bir sıra sahələrində geniş tətbiq olduğundan, bu materialların strukturlarının və xassələrinin çoxcəhətli tədqiqi diqqət mərkəzində saxlanılır. Müasir zamanda tədqiqat üsullarının inkişaf etməsi ilə əlaqədar olaraq, yeni, daha dəqiq təcrübi nəticələr əldə edildikcə, polimer materialların strukturuna və xassələrinə aid olan bir sıra əvvəlki baxışlar köhnəlmiş, yeni mülahizələr, izahatlar və təsəvvürlərlə əvəz olunmuşdur.

Keçən əsrin 50-ci illərindən etibarən polimer materialların müxtəlif aspektlərdə intensiv tədqiqatlarının başlanması ilə əlaqədar olaraq, hazırda bu materialların kimyəvi tərkibi, təsnifatı, fiziki strukturu və fiziki-mexaniki xassələri haqqında uyğun, müasir texniki ədəbiyyatlarda [1-5] məlumatlar çoxluğu yaranmışdır. Əvvəllər kimya elminin bölməsi hesab edilən polimer sahəsi, öz inkişaf yolunu keçərək, hazırda müstəqil elm sahəsi kimi qəbul olunur və bu sahədə kifayət qədər diqqətəlayiq elmi-texniki işlər yerinə yetirilmişdir.

Müasir zamanda, müxtəlif metallar və digər klassik materiallarla tətbiq olunma sahəsində rəqabətdə olan polimer materiallar, öz inkişaf yolunda bu materialların bir sırasını əksər hallarda əvəzləyərək, onların istehsal-istehlak sahələrinə ciddi təsir göstərirlər. Çoxsaylı tədqiqatların nəticələrinin araşdırılmasından məlum olur ki, polimer materialların təcrübələrdə təsadüf edilən xassə göstəricilərinin ədədi qiymətləri, onların nəzəri mümkün olan göstəricilərindən xeyli aşağıdır. Göstərilən fakt və polimer materialların yüksək dərəcədə texnoloji tətbiqyönümlü olması, onların bir sıra elektrofiziki, mexaniki və s. üstün xüsusiyyətlərə malik olması bu materiallara olan marağı artırır.



Şəkil 1. Polietilen materialında sferolit strukturu.

Şəkil 2. Bir ox istiqamətində deformasiya olunmuş polieti lendə fibrilyar struktur.

Polimer materialların tədqiqində rentgenstruktur analiz, optik və elektron mikroskopiyası, kütlə-spektrometriyası, infraqırmızı spektroskopiya və digər müasir cihaz və qurğuların texniki imkanlarından istifadə edərək, müəyyən edilmişdir ki, xətli kimyəvi struktura malik olan polimer materiallar kristallaşaraq, amorf-kristallik strukturlu, polikristal sistemlər əmələ gətirirlər. Ədəbiyyatda [6-8] izotrop və bir ox istiqamətində deformasiya nəticəsində anizotrop polimer materiallar, uyğun olaraq, sferolit və fibril şəkilli amorf-kristallik strukturların əmələ gəlməsi ilə xarakterizə olunurlar. Qeyd etmək lazımdır ki, polimerlərin kimyəvi tərkibindən, makromolekulların strukturundan və materialın hazırlanma texnologiyasının parametrlərindən asılı olaraq, materiallarda müxtəlif ölçüdə, müxtəlif struktur elementləri əmələ gəlir ki, bu da kimyəvi tərkibi eyni olan polimer materialda, strukturdan asılı olaraq, fərqli xassələrin formalaşmasına səbəb olur. Şəkil 1və 2-də müxtəlif texnoloji rejimlərdə emal olunmuş xətli polimer sistemlərində, müvafiq olaraq sferolit və fibril strukturları təqdim olunmuşdur [6].

Qeyd etmək lazımdır ki, ədəbiyyatda, polimer materialların strukturu və xassələri arasında mövcud olan əlaqələrin birqiymətli izahı üzrə, bir sıra hallarda, fikir

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics
E-mail: jophphysics@gmail.com

ayrılıqları hələ də davam etməkdədir. Hətta bəzi hallarda eyni kimyəvi tərkibə malik və eyni texnoloji prosesdə emal olunmuş polimerdə müxtəlif xassələrin mövcudluğu ədəbiyyatda mübahisə və müzakirələrə səbəb olur. Bu hal, polimer materialların xarici təsir amillərinə qarşı yüksək həssaslığı, materialın strukturuna və xassəsinə təsir edən amillərin çoxluğu ilə izah olunur. Qeyd etmək lazımdır ki, polimer materialların bu və yaxud digər xassəsi tədqiq edilərkən, əksər hallarda, materiala təsir edən çoxsaylı amilləri ləğv etmək mümkün olmur. Bu hal bir tərəfdən əldə etdiyimiz nəticələri müxtəlif nöqteyi-nəzərdən izah etməyə imkan verir, digər tərəfdən isə alınan nəticələri müqayisə etməyi çətinləşdirir. Bu halda, tədqiqatda əldə etdiyimiz nəticəni, başqa üsullarla, müxtəlif texnoloji parametrlərlə emal olunmuş həmin materialda alınan nəticələrin sırasından biri kimi qiymətləndirmək olar.

Təqdim olunan məqalədə polietilen materialında deformasiya prosesinin nümunələrin qalınlığı və polimer ərintinin soyudulma sürətindən asılılığı tədqiq edilmişdir. Tədqiqat obyekti olaraq, qalınlığı 0,25-1,75mm olan yüksək təzyiqli polietilen materialından nümunələr hazırlanmışdır. Müxtəlif qalınlıqlı tədqiqat nümunələri T=200°S-də presləmə üsulu ilə hazırlandıqdan sonra, müxtəlif T_{kr} kristallaşma temperaturlarda kristallaşdırdıqdan sonra materialın bir ox istiqamətində dartılma deformasiya prosesi yerinə yetirilmişdir. Nümunələrin deformasiya prosesi otaq temperaturunda aparılmışdır.

Cədvəl 1-də deformasiya prosesində əldə edilən nəticələr, şəkil 3-də isə müvafiq diaqram təqdim olunmuşdur. Təqdim olunan nəticələrdən məlum olur ki, yuxarıda qeyd olunan texnoloji şəraitlərdə hazırlanmış yüksək təzyiqli polietilen nümunələrinin deformasiya prosesinin materialın qalınlığından asılılıq əyrisi maksimuma malik olur və nümunələrin qalınlığının artması ilə deformasiya prosesinin azalması müşahidə olunur.

Qeyd etmək lazımdır ki, polietilen, polipropilen, kapron, polivinilidenftorid və digər xətti struktura malik polimer materiallarda qalınlıq artdıqca sferolit quruluşda nizamlılıq müəyyən qədər pozulur və materiallarda sferolitəbənzər kristallik struktur elementləri əmələ gəlir. Qalın nümunələrdə boşluqların, çatların çoxluğu, sferolitəbənzər struktur elementlərin ölçülərinin böyüklüyü materialın qeyribircinslik dərəcəsini artıraraq, materialın deformasiya prosesinə təsir edir və deformasiyanın azalmasına səbəb olur. Digər tərəfdən, deformasiya prosesinin zəifləməsinə səbəb olaraq polimer ərintisinin 200°S-dən kiçik sürətlərdə soyudulmasını göstərmək olar. Bu halda sferolit struktur elementlərinin ölçülərinin daha böyük olması yenə də materialın qeyribircinslilik dərəcəsinin yüksək olmasına səbəb olur.

Cədvəl 1

Polietilen materialının deformasiya prosesinin nümunələrin qalınlığından və ərintinin soyudulma sürətindən asılılığının tədqiqindən alınan nəticələr. Materialın ərintisi $T_ə$=200°S-də həyata keçirilmişdir.

	d,mm	ε_1%	ε_2%	ε_3%	ε_4%	*P*, atm	T_d, °S
1	0,25	370	330	170	110	80	20
2	0,5	325	300	260	180	“-“	“-“
3	0,75	275	230	200	120	“-“	“-“
4	1,0	210	180	135	80	“-“	“-“
5	1,25	175	150	120	75	“-“	“-“
6	1,50	160	130	100	65	“-“	“-“
7	1,75	148	120	98	50	“-“	“-“



Şəkil 3. Yüksək sıxlığa malik polietilen lövhələrinin deformasiya prosesinin ərintinin soyudulma *v* sürətindən və materialın *d* qalınlığından asılılığı. 1- *v=40 %/dəq*, 2- *v=27 %/dəq*, 3- *v=10,5 %/dəq*,4- *v=1,0 %/də*q.
Deformasiya prosesi T_d =20°S temperaturunda aparılmışdır.

Qeyd etmək lazımdır ki, polimer materialların mexaniki xassələri, əsasən üst molekulyar quruluşun xarakteristikalarından, struktur elementlərinin və nümunələrin ölçülərindən həssas olaraq asılıdır.

Kristallaşan polimer materiallar bir ox istiqamətində deformasiya prosesinə məruz qaldıqda, faktiki olaraq, materialda rekristallizasiya prosesi baş verir, belə ki, ilkin sferolit strukturu dağılaraq materialda fibrilyar struktur əmələ gətirir. Rekristallizasiya prosesinə təsir edən amillərin çoxluğu, deformasiya prosesini bütün hallarda əhatə edən vahid nəzəriyyənin qurulmasını mümkünsüz edir.

[1] *В.И. Селихова, В.М. Неверов, Е.А. Синевич, В.С. Тихомиров, С.Н. Чвапун.* Высокомолек. соед. А. 2005, т. 47, №2, с. 228-241.

[2] *М.В. Шоташвили, А.В. Ресовский, А.В. Смирнов, Б.А. Федоров, И.С. Курындин, Г.К. Ельяшевич*. Высокомолек. соед. А.2005, т.47, №6, с.970-97.

[3] *А.В. Волынский, Т.Е. Гроховская, А.И. Кулебякина, А.В. Большакова, Н.Ф. Бакеев,* Высокомолек. соед. А.2007, т. 49, №7, с.1224-1238.

[4] *А.Л. Волынский, Т.Е. Гроховская, А.И. Кулубякина, А.В.Большакова, Н.Ф. Бакеев*. Высокомолек. соед. А. 2007, т. 49, №11, с. 1946-1958.

[5] *K. Hong, G. Strobl.* Высокомолек. соед. А, 2008, т. 50, №5, с. 760-772.

[6] *Ф.Х. Джейл.* Полемерные монокристаллы, перевод с английского *В.Г. Баранова, Т.И. Волкова, Б.М. Гинзбурга, Ю.Н. Папанова*, под. ред. док. физ. мат. наук проф. *С.Я.Френкеля,* Изд. «Химия» Ленинградское отделение, 1968, 551с.

[7] *А. Шарплез.* кристаллизация полимеров, Изд. «Мир», Москва 1968, 200с.

[8] *Л. Мандеркен*. «Кристаллизация полимеров», перевод с английского под.ред.докт. ф.-м. наук *С.Я. Френкеля.* Изд. «Химия» М.-Л.1966, 333 с.

[9] *A.M. Həşimov, L.Ç. Süleymanova, G.Ə. Ağayeva, Əhməd Nair, H.B. Qurbanov, H.C. Hüseynov*. Energetikanın problemləri, №4, 2014, s. 26-33.

A.M. Gashimov, L.Ch. Suleymanova, K.B. Gurbanov, G.A. Agayev

THE REGULATION OF THE STRUCTURE AND DEFORMATION PROPERTIES IN POLYETHYLENE SAMPLES

The investigation of uniaxial deformation processes of high pressure polyethylene samples is carried out in this article. The dependences of deformation processes of polyethylene samples formed at different technological processes are studied. It is revealed that the sample deformation abilities decrease with thickness increase and cooling rate decrease.

А.М. Гашимов, Л.Ч. Сулейманова, К.Б. Гурбанов, Г.А. Агаева

РЕГУЛИРОВАНИЕ СТРУКТУРЫ И ДЕФОРМАЦИОННЫХ СВОЙСТВ В ОБРАЗЦАХ ПОЛИЭТИЛЕНА

В статье проведены исследования процессов одноосной деформации образцов полиэтилена высокого давления. Изучены зависимости процесса деформации образцов полиэтилена, сформованных при различных технологических условиях. Выявлено, что с увеличением толщины и уменьшением скорости охлаждения расплава деформационные способности образцов снижаются.

Qəbul olunma tarixi: 11.11.2016

p-Si/MƏSAMƏLİ-Si/NANOQURULUŞLU-CdS HETEROKEÇİDLƏRİNİN ELEKTRİK VƏ FOTOELEKTRİK XASSƏLƏRİ

H.M. MƏMMƏDOV, X.M. ƏHMƏDOVA, V.C.MƏMMƏDOVA, S.A. MƏMMƏDOVA, S.N. SƏRMƏSOV
Bakı Dövlət Universiteti, Az1148, Z.Xəlilov küç. 23, Bakı
E-mail: mhhuseyng@gmail.com

İşdə elektrokimyəvi çökdürülmə (CdS) və elektrolitik aşılama (*məsaməli*-Si) metodları əsasında *p*-Si/*məsaməli*-Si/*nanoquruluşlu*-CdS heterokeçidləri hazırlanmışdır. Heterokeçidlərin elektrik və fotoelektrik xassələri məsamələrin və kristal dənəciklərin ölçüsündən və katod çökdürülmə potensialından asılı olaraq tədqiq edilmişdir. Heterokeçidlərdə maksimal effektivlik üçün (5.8%) məsamələrin optimal ölçüsü (10 nm) müəyyənləşdirilmişdir.

Açar sözlər: məsaməli, nanoquruluşlu, heterokeçid, günəş elementləri, effektivlik
PACS: 62.23.St; 82.33.Ln; 81.05.Rm; 73.40.-c; 88.40.H-

GİRİŞ

Məlumdur ki, günəş elementləri üçün ideal material qadağan olunmuş zolağının eni 1.1-1.7 eV, düzzolaqlı, asan əldə edilə bilən zəhərsiz material olmalı, habelə, yaxşı çevirmə effektivliyinə və uzunmüddətli stabilliyinə malik olmalıdır. Bu baxımdan, hazırda belə effektiv və texnoloji fotoçeviricilərin hazırlanması üzrə müxtəlif istiqamətlərdə elmi-tədqiqat işləri aparılır: monokristallik silisium əsasında [1-3]; GaAs və InP əsasında [4-5]; CdTe, $CuInSe_2$, $CuInGaSe_2$ halkogenid yarımkeçiriciləri əsasında [6-8] günəş elementləri xüsusi yer tutur. Maya dəyərinin aşağı olmasına görə üzvi polimerlər əsasındakı fotoçeviricilər daha perspektiv görünmələrinə baxmayaraq, bu sistemlərin effektivliyi hələ ki, aşağıdır (3,5% - 8,5%) [9]. Uducu layların bu cür çoxluğunun olmasına baxmayaraq, hazırda dünyada istehsal olunan günəş elementlərinin 95%- dən çoxu silisium (monokristallik, polikristallik, amorf və s.) əsasındadır. Dünya bazarında silisium əsaslı günəş elementlərinin belə üstünlük təşkil etmələri, silisiumun mikroelektronika sənayesində yüksək keyfiyyətli və böyük miqdarda istehsal olunması ilə əlaqədardır. Bununla yanaşı, silisium əsaslı günəş elementləri ətraf mühitdə çətinliklər yaratmır. Həmçinin, oksigendən sonra silisium yer qabığında ikinci ən çox yayılmış element hesab olunur (35%). Silisium, günəş şüalanmasının ultrabənövşəyi oblastdan yaxın infraqırmızı oblastına qədər olan geniş bir hissəsinin fotoelektrik çevrilməsi üçün əsas material sayılsa da, o, günəş şüalanmasının yalnız kiçik bir hissəsini uda bilir (1.4-1.5 eV). Hesablamalara görə, ideal silisium günəş elementlərinin effektivliyi 30% ola bilər (AM1.5 üçün). Lakin kristallik silisiumun yüksək sındırma əmsalına (~3.5) malik olması, günəş spektrinin 300-1100nm oblastında böyük optik itkilərin yaranmasına səbəb olur. Bu cür çatışmazlıqlar isə yekunda *p*-*n*-Si/$A^{II}B^{VI}$ (CdS, CdSSe, CdZnS, CdZnSSe, CdZnSTe) heterokeçidləri əsasındakı günəş elementlərinin effektivliyinin kiçik qiymətinə gətirir. Məsaməli silisiumda otaq temperaturunda görünən fotolüminessensiyanın müşahidə edilməsi [13], onun fotoelektronikada geniş spektrdə tətbiq olunma imkanlarını yaradır. Hazırda məsaməli silisium günəş elementlərində universal material kimi tətbiq edilir (həm uducu, həm də antisəpici material kimi). Məsaməlilik, qadağan olunmuş zolağın eni (məsaməlilikdən asılı olaraq 1.1-1.9eV intervalında dəyişir), qalınlıq, sındırma əmsalı (məsaməlilikdən asılı olaraq 30%-dən 3%-ə qədər dəyişdirilə bilir), məsamələrin ölçüləri və s. təbəqənin parametrlərindən (elektrolitin miqdarından, cərəyan sıxlığından, temperaturdan, kristallik oriyentasiyadan, aşqarların tip və konsentrasiyasından, aşılanma müddətindən və s.) asılıdır. Hazırlanma texnologiyasından asılı olaraq məsamələrin ölçüləri 5-10 nm-dən 100 mkm-lərə qədər dəyişdirilə bilir. Əksolmanın minimuma endirilməsi (işığın məsamələrdə tutulması), məsaməliliyin dəyişdirilməsi ilə qadağan olunmuş zolağın eninin artırıla bilinməsi (yüklərin mikrokristallitlərdə kvantlanması ilə əlaqədar olaraq) məsaməli silisiumdan uducu lay kimi istifadə etməyə imkan verir. Məsaməli silisiumun kristallik quruluşu, kimyəvi, elektrik, fotolüminessensiya və optik xassələri müxtəlif eksperimental metodların köməyi ilə geniş tədqiq edilmişdir [14]. Dünya elmi ədəbiyyatında məsaməli silisiumun müxtəlif metodlarla: kimyəvi, elektrokimyəvi, fotoelektrokimyəvi aşılama metodları ilə otaq temperaturunda alınmasına rast gəlinir [15-21].

Nanoquruluşlu kadmium sulfidin (CdS) alınmasında isə əsasən "yüksək temperaturlu" və bahalı metodlardan istifadə edilir [22-25]. Digər tərəfdən, fotoelektronikanın inkişafı, əsasən, fotodiodların parametrlərinin stabillik dərəcəsinin artırılması və maya dəyərinin azaldılmasına istiqamətləndirirlər. Bu nöqteyi-nəzərdən, fotodiodların hazırlanmasında istifadə edilən "yüksək temperaturlu" bahalı metodlar çətin idarə olunmaları və texnoloji prosesin səmərəsiz olmaları səbəbindən öz aktuallığını tədricən itirir. Heterokeçidlərin hazırlanması zamanı yüksək temperaturlu texnologiyadan istifadə bütün struktur boyu, həmçinin nazik təbəqədə idarə olunmayan aşqarların konsentrasiyasının artmasına səbəb olur. Ona görə də, idarə olunmayan defektləri az və qalınlığı kiçik olan nazik təbəqələrin alınması qarşıya qoyulmuş əsas məsələdir. Bu baxımdan, nanoquruluşlu CdS nazik təbəqələrinin məsaməli silisiumun səthində alınması üçün, özünün sadəliyi və maya dəyərinin ucuz olmasına görə sulu məhluldan elektrokimyəvi çökdürmə və ion laylı hemosorbsiya metodları istifadə oluna bilər.

Göstərilən faktları nəzərə alaraq, işdə yeni nəsil sayıla biləcək optimal və dayanıqlı parametrlərə malik *p*-Si/*məsaməli*-Si/*nanoquruluşlu*-CdS günəş elementləri elektrokimyəvi çökdürülmə və elektrolitik aşılanma metodları ilə hazırlanmışdır.

131 H.Javid ave, AZ-1143, Baku
ANAS, G.M.Abdullayev Institute of Physics
E-mail: jophphysics@gmail.com

EKSPERİMENT VƏ NƏTİCƏLƏR

Elektrolitik aşılanma zamanı altlıq olaraq (111) oriyentasiyalı və ~0.2÷0.6 mm qalınlıqlı monokristal *p*-Si müstəvi paralel lövhələri istifadə olunmuşdur. Altlığın səthindəki fiziki və kimyəvi çirklənmələri, habelə oksid qatını (otaq temperaturunda *p*-Si kristal lövhələrinin səthində, adətən 30-120 Å qalınlıqlı oksid təbəqəsi olur) təmizləmək məqsədilə, məhlula salınmazdan əvvəl həmin altlıqlar otaq temperaturunda $KOH+KNO_3$ (1:4) məhlulunda 48 saat ərzində saxlanılmış, sonra isə ardıcıl olaraq 10%-li HCl turşusunda (3 dəq), təmiz spirtdə və bidistillə olunmuş suda yuyulmuşdur. Bəzi hallarda isə altlıqların yuyulması yüksək temperaturda (≥300°C-də) HCl məhlulunda qısa müddət ərzində aparılmışdır. Yuyulma prosesindən sonra, altlıqlar bidistillə olunmuş suyun içərisindən çıxarılmadan soyuducuya yerləşdirilmişdir. Bundan sonra, təmizlənmiş *p*-Si lövhələri 50% durulaşdırılmış HF məhlulunun içərisinə salınmışdır. Anod materialı kimi platin məftildən istifadə olunmuşdur. Məhlula 30V gərginlik tətbiq olunmuşdur. Çökdürülmə 60-70mA cərəyanda aparılmışdır. Aşılanmanın davametmə müddətindən (12-30 dəqiqə) və məhluldakı cərəyandan asılı olaraq, monokristallik *p*-Si lövhələrinin səthində 5-30nm məsamələrə malik *məsaməli*-Si alınmışdır. Nəticələr AFM fotoşəkilləri ilə yoxlanılmışdır (şəkil 1).

Hazırlanmış heterokeçidlərdə silisiuma cərəyan kontaktı kimi alüminiumdan (Al), CdS təbəqələrinə isə In-dan (və ya Al-dan) tor şəkilli (III və ya П formalı kontaktlar) cərəyan kontaktları istifadə edilmişdir. Hazırlanmış heterokeçidlərin elektrik və fotoelektrik xassələri məsamələrin və CdS nazik təbəqələrində nanodənəciklərin ölçüsündən asılı olaraq tədqiq edilmişdir. Heterokeçidlərin elektrik və fotoelektrik parametrlərinin optimal qiymətləri üçün məsamə və dənəciklərin effektiv ölçüləri seçilmişdir ki, bu da Al/*p*-Si/*məsaməli*-Si/*nanoquruluşlu*-CdS/In heterokeçidləri əsasındakı çeviricilərin maksimal effektivliyini təmin etmişdir.

Bilavasitə çökdürmədən sonra *p*-Si/*məsaməli*-Si/*nanoquruluşlu*-CdS heterokeçidləri düzləndirmə xassəsinə malik olmuşdur (şəkil 3). Düzləndirmə istiqaməti *p*-Si-a müsbət potensial tətbiq olunduğu hala uyğundur. Şəkil 3-dən göründüyü kimi, Si-un CdS-lə elektrik kontaktında düzünə cərəyanın qiyməti məsamələrin ölçüsündən asılı olaraq dəyişir. Məsamələrin ölçüsü 7 nm-dən 10 nm-ə qədər artdıqca düzünə cərəyanın qiyməti artır, əksinə cərəyan isə kəskin olaraq azalır. Ən yaxşı düzləndirmə məsamələrinin ölçüsü 10 nm olan təbəqələr əsasındakı heterokeçidlərdə müşahidə olunur (şəkil 3). Məsamələrin ölçüsünün artması ilə düzləndirmə əmsalının artması keçid oblastında nanoölçülü heterokeçidlərin formalaşması ilə izah oluna bilər. Belə ki, məsamələrin ölçüsünün artması ilə məsamələr arasında yükdaşıyıcıların tunel keçidi hesabına daşınmasının kontaktda yaranan nano-heterokeçidlərdə daha çox ehtimallı olması, elektron-deşik cütünün kifayət qədər ayrıla bilməməsinə səbəb olur. Lakin məsamələrin ölçüsünün azalması ilə eninə istiqamətdə tunel keçidlərinin ehtimalının azalması nəticəsində düzünə cərəyanın qiyməti də azalır. Onu da qeyd edək ki, məsamələrin ölçüsünün 10 nm-dən böyük qiymətlərində məsamələr arasındakı sərhəddin ölçüsünün daha da azalması xarici sahənin hər iki istiqamətində tunel cərəyanlarının ehtimalının kəskin olaraq artmasına və nəticədə, düzləndirilmənin azalmasına səbəb olur.



Şəkil 1. Elektrolitik aşılanma metodu ilə alınmış məsaməli-Si-un SEM fotoşəkilləri: a- ~30 nm; b- ~10 nm; c- ~7.4 nm.



Şəkil 2. Elektrokimyəvi çökdürmə metodu ilə CdS nazik təbəqələrinin səthinin SEM fotoşəkilləri.
a) *p*-Si/7.4 nm *məsaməli*-Si/CdS; b) *p*-Si/10 nm-*məsaməli*-Si/CdS; c) *p*-Si/30 nm-*məsaməli*-Si/CdS.



Şəkil 3. Müxtəlif ölçülü məsamələrə malik Al/*p*-Si/*məsaməli*-Si/ CdS/In heterokeçidlərinin bilavasitə çökdürmədən sonra otaq temperaturunda qaranlıq VAX-ı.



Şəkil 4. Müxtəlif ölçülü məsamələrə malik Al/*p*-Si/*məsaməli*-Si/*nanoquruluşlu*-CdS/In heterokeçidlərinin yarımloqarifmik miqyasda VAX-ı.

Şəkil 4-dən göründüyü kimi $U \leq 0.6$V gərginliklərə qədər düzünə cərəyan məlum

$$I = I_0\left[exp\left(\frac{qU}{nkT}\right) - 1\right] \qquad (1)$$

Ifadəsinə tabe olan eksponensial qanunla artır. Burada, I_0 dioddan axan doyma cərəyanı, q– elektronun yükü, k– Bolsman sabiti, T- temperatur, n- öyrənilən struktura məxsus VAX-nın qeyri-ideallıq əmsalıdır.

Şəkildən istifadə etməklə, qeyri-ideallıq əmsalı $n = \frac{q}{kT}\frac{\Delta U}{\Delta \ln J}$ ifadəsi əsasında hesablanmışdır. Göründüyü kimi, məsamələrin ölçüsü d<10nm olan heterokeçidlərdə geniş gərginlik oblastında n-nin qiyməti çox böyük qiymət alır. Bu fakt gərginliyin artması ilə həcmi yüklər

oblastında defekt mərkəzlərinin pilləli boşalması nəticəsində tunel keçidlərinin üstünlük təşkil etməsini bir daha sübut edir. Məsamələrin ölçüsünün cüzi artımı ilə qeyri-ideallıq əmsalı xarici gərginliyin kiçik qiymətlərində ($U \leq 0{,}2$V) n=1,8-ə qədər azalır. Si/CdS heterokeçidlərinin ardıcıl müqavimətinin artması ilə xarici gərginliyin əsas hissəsinin həcmi yüklər oblastına deyil, CdS nazik təbəqələrinə düşməsi, heterokeçidlərdə kiçik gərginliklərdə rekombinasiya cərəyanlarının üstünlük təşkil etməsinə səbəb olur. Belə ki, düzünə xarici gərginliyin artması ilə, Si-dan keçid oblastına injeksiya olunan deşiklərin rekombinasiya mərkəzlərini doldurması nəticəsində artıq çəpərüstü keçidlər üstünlük təşkil edir ki, bu da n-nin qiymətinin azalması ilə nəticələnir.

